"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

# Cümhuriyyətin dil siyasəti

Müstəqil dövlətin mühüm atributlarından biri olan dövlət dili məsələsi yenicə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin diqqət mərkəzində idi. Cümhuriyyət hökuməti 1918-ci il 27 iyun tarixli qərarı ilə o zaman türk dili adlanan Azərbaycan dilini dövlət dili elan etdi. Həmin qərar Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə Azərbaycanın iki yerə bölünməsindən sonra ana dilinin dövlət dili kimi işlədilməsinə aid ilk sənəddir. Qeyd edilməlidir ki, dövlət dili haqqında qərar hökumətin Gəncəyə köçdükdən sonra qəbul etdiyi ilk qərarlardan biridir. Bu fakt Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin dövlət dili məsələsinə necə mühüm diqqət yetirdiyini bir daha sübut edir.

Azərbaycan dilinin dövlət dili elan edilməsi haqqında qərara əsasən, ölkədə məhkəmə, inzibati idarəçilik və digər vəzifələrin başında duranlar dövlət dilini lazımi səviyyədə öyrənənədək, hökumət müəssisələrində rus dilinin də işlənməsinə yol verilirdi.

Qərardan sonra daxili işlər naziri Behbud xan Cavanşir "Azərbaycan" qəzetinin müxbiri ilə müsahibəsində bildirmişdi: "Azərbaycan müəssisələrində rus dilinin işlədilməsi... hazırkı dövrün zərurətindən irəli gəlir. Əlbəttə, bu, çox davam etməyəcəkdir. Yüksək vəzifədə işləyən və türk dilini bilməyən məmurlar uzun müddət işləyə bilməyəcəklər. İki ildən sonra Azərbaycanın bütün müəssisələri milliləşdiriləcəkdir. Türk dilini bilməyən məmurlar isə vəzifələrini itirməməkdən ötrü bizim dili öyrənməli olacaqlar".

Hökumət qeyri-millətlərdən olan Azərbaycan vətəndaşlarının dövlət dilini öyrənməsi üçün tədbirlər görürdü. 1919-cu ilin sentyabrında türk dilinin öyrədilməsi üçün kurslar təşkil edilmişdi və bu məqsədlə 351 min manat vəsait ayrılmışdı.

Parlament üzvləri Azərbaycan dilinə vaxtaşırı münasibət bildirirdilər. Parlamentin 1919-cu il avqustun 21-də keçirilən iclasında gündəlikdəki məsələ - Bakı Dövlət Universitetinin açılması ilə bağlı deputatların çıxışlarında dil məsələsinə xüsusi diqqət yetirilmişdi. Çıxış edənlərin, demək olar ki, hamısı ölkənin ilk ali məktəbində tədrisin hansı dildə aparılmasına böyük əhəmiyyət verirdilər.

Ana dilinin dövlət dili elan edilməsi ilə əlaqədar olaraq, təhsil müəssisələrinin milliləşdirilməsi qarşıda duran əsas məsələlərdən idi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il avqustun 28-də ibtidai və orta təhsil müəssisələrində təhsilin ana dilində aparılması haqqında qərar qəbul etdi. Qərara görə, bütün ibtidai təhsil müəssisələrində tədris ana dilində aparılır, eyni zamanda, dövlət dili icbari qaydada tədris olunurdu.

1918-ci il dekabrın 17-də Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarovun 34 saylı əmri ilə Azərbaycan-türk dili orduda da dövlət dili kimi qəbul edilmişdi.

Azərbaycan dilinin, sözün əsl mənasında, dövlət dili kimi işlənməsi təcrübəsi geniş şəkildə ilk Azərbaycan Parlamentinin dilində əksini tapmışdır. Dövlət idarələrində müəyyən müddət ərzində rus dilinin işlənməsinə də icazə verilməsi Parlamentə aid deyildir.

Ona görə də parlamentdə dillərin işlənməsi məsələsi, təbii olaraq, qanunverici hakimiyyətin, Parlament üzvlərinin öhdəsinə buraxılmışdı. Parlamentin istifadə etdiyi dil dövlət dili statusuna malik Azərbaycan türkcəsi idi.